# Bədii yaradıcılıqda

## təxəyyülün yeri və imkanları

Cəmiyyətin mənəvi həyatının təkmilləşdirilməsi və yeniləşdirilməsi vəzifələri tələbə mənəviyyatının, dünyagörüşünün formalaşmasında güclü vasitə olan bədii yaradıcılığın təsir mexanizminin və xüsusiyyətlərinin müəyyənləşdirilməsini irəli sürür. Çünki məhz həmin təsir nəticəsində tələbənin bədii yaradıcılıq qabiliyyəti aşkara çıxır, onun mənəvi aləmi zənginləşir, rəngarəng olur, dünyagörüşü elmi-intellektual və humanist məzmun kəsb edir.

Əlbəttə, bədii yaradıcılıq sahələrinin yenidən qurulması qısa müddətə başa gəlmir. Bu sahədə əsas vəzifə, ümumiyyətlə, bədii yaradıcılığın vəzifələrinin işgüzar, prinsipial şəkildə təhlili, onun güclü və zəif cəhətlərinin, faydalı və faydasız, aktual və qeyri-aktual xüsusiyyətlərinin araşdırılması, müasir şəraitdə onun mahiyyətinin və xarakter cəhətlərinin, eləcə də inkişaf istiqamətlərinin və perspektivlərinin müəyyən edilməsidir. "Unutmamaq vacibdir ki, qədim və zəngin tarixə malik olan xalqımız elmə, mədəniyyətə, incəsənətə və habelə bədii xalq yaradıcılığına yiyələnmək üçün min illərlə təkamül yolu keçmişdir. Bu dövr ərzində ulularımızın bədii təfəkkürü, xalq yaradıcılığı qaynaqları mürəkkəb proseslərlə qarşılaşsa da zamanın amansız sınaqlarına təmkinlə sinə gərərək yiyələndiyi mənəvi dəyərləri taleyin ümidinə atmamış, cəmiyyət həyatının bütün inkişaf mərhələlərində baş vermiş ictimai-siyasi hadisələrin fövqündə dayanmışdır". (1, s.3)

Hazırki şəraitdə bədii yaradıcılığın sosial funksiyası insanları mənəviyyatsızlıqdan qorumaq, fərdiliyi itirmək qorxusunun qarşısını almaq, sosial-tarixi şəraiti, cəmiyyətin inkişafı gedişini qiymətləndirməkdə onlara kömək etməkdən ibarətdir. Buna görə də yeni şərait tələb edir ki, bədii yaradıcılıq sahəsi inzibati bürokratik idarəçilik metodlarından xilas olsun, şablonlara, kompaniyaçılığa, bu və ya digər tərbiyə vasitələrini mütləqləşdirməyə yol verilməsin, sosial mühitdə əsl yaradıcılıq atmosferi qərarlaşsın. Əgər bu mümkün olarsa, onda deməli, yüksək bədii zövqə, intellektual-mədəni səviyyəyə, zəngin təxəyyülə və dünyagörüşə malik insan tərbiyə olunması imkanları da genişlənər.

Mənbəyi və məzmunu konkret obyektiv gerçəklik olan bədii yaradıcılıq cəmiyyətin həyat tərzinin mühüm amilini və tərkib hissəsini təşkil edir. Ali məktəblərdə sənətlə bağlı ixtisaslarda təlimin mahiyyəti bundan ibarətdir ki, təhsil illərində real davranış və ünsiyyət normalarına müvafiq olaraq tələbələri yaradıcılığa cəlb etsin və onlarda yüksək mənəvi-mədəni tələbatlar tərbiyə etsin. Son zamanlar ölkəmizdə gedən köklü dəyişikliklər prosesi bədii yaradıcılığın ictimai həyatın bədii sahələrinə göstərdiyi təsirin ən geniş miqyasda artmasını tələb edir. Lakin kütləvi bədii yaradıcılığı insan amilinin fəallaşmasının səmərəli vasitələrindən biri kimi, xalqın bədii təfəkkürünün təzahürü kimi, nəzərdən keçirərkən, təkcə əldə olunmuş nailiyyətləri təhlil etməklə kifayətlənmək olmaz. Burada yeni sosial, mədəni vəzifələrin həyata keçirilməsində insanın yaradıcı şəxsiyyət kimi formalaşmasında bədii mədəniyyətin bundan sonra oynayacağı rolu da müəyyən etmək lazımdır.

Şəxsiyyətin formalaşması sahəsində bədii təmayüllü ali məktəblər qarşısında duran vəzifə hər bir tələbənin bədii istedadını aşkara çıxarıb inkişaf etdirməkdən, bədii yaradıcılıqda iştirakı hər bir tələbə üçün daxili zərurətə çevirməkdən ibarətdir.

Bədii yaradıcılıq psixologiyası, yaradıcı fəaliyyət, təxəyyüllə bağlı alimlərimiz ara-sıra tədqiqat işləri aparsa da, sırf tələbə yaradıcılığına, yaradıcı təxəyyülə, bədii ixtisaslarda təhsil alan tələbələrin bədii yaradıcılıq qabiliyyətlərinin inkişafına həsr olunmuş tədqiqatlara, alim araşdırmalarına, daha konkret desək, mükəmməl bir tədqiqat əsərinə ehtiyac duyulur. Azərbaycanda tələbələrin yaradıcı təxəyyülünün inkişafı probleminə aid tədqiqatlara meyl göstərilməməsi bu mühüm sahənin lazımınca öyrənilməməsi ilə nəticələnmişdir.

Yaradıcılıq psixologiyası insanın yaradıcı fəaliyyətinin bütün növlərini öyrənir. Yaradıcı fəaliyyət prosesində təxəyyül daha mühüm rol oynayır. "Psixoloqların əksəriyyəti təxəyyülə böyük məna verir və hesab edirlər ki, təxəyyül yaradıcılıq qabiliyyəti sistemində mühüm yer tutur" (8, s.44). Təxəyyül yaradıcılıq prosesində bir qabiliyyət kimi formalaşır, yeni şəxsiyyətin əsas fərdi-psixi xassələrindən biri kimi meydana çıxır. Yaradıcı fəaliyyət ictimai əhəmiyyətə malik orijinal məhsul verən fəaliyyətdir. Yaradıcı təxəyyül yaradıcı fəaliyyətin tərkib hissəsini təşkil edən yeni və orijinal surətlərin yaradılması prosesidir. Bu, təxəyyülün yüksək dərəcəsi olub, yaradıcı fəaliyyətin bütün növlərində mühüm rol oynayır. Yazıçının, dramaturqun, aktyorun, rejissorun, rəssamın və sairənin fəaliyyəti həmişə həyat təcrübəsi və mürəkkəb, çoxcəhətli biliklər sisteminə əsaslanan yaradıcı təxəyyülün iştirakı olmadan mümkün deyildir. Hər bir təxəyyül surətində şəxsiyyətin növləri, münasibətləri, sərvət meylləri və s. özünün aydın əksini tapır. Bu o deməkdir ki, başqa psixi proseslər kimi təxəyyülün də mahiyyətini aydınlaşdırmaq üçün onu məhz şəxsiyyət baxımından nəzərdən keçirmək lazımdır. Bədii yaradıcılıq sahəsində təxəyyül surətləri öz əksini ədəbiyyat və incəsənət əsərlərində və sairədə tapır. Bədii ixtisaslarda təhsil alan tələbələri təlimin ilk gündən yaradıcılığa, müstəqilliyə, tənqidi düşüncəyə istiqamətləndirmək zəruridir. Heç şübhəsiz, tələbələrin yaradıcı təxəyyülünün hələ çox böyük və kifayət dərəcədə istifadə olunmamış ehtiyat qüvvələri və imkanları vardır. Psixoloq və pedaqoqların əsas vəzifələrindən biri də tələbələrin bu ehtiyat qüvvələrini üzə çıxarmaqdan, onların əsasında təlimi daha səmərəli və yaradıcı surətdə təşkil etməkdən ibarətdir. Tələbələrin yaradıcı təxəyyülünü inkişaf etdirməklə bağlı müəllimin vəzifəsi onların müstəqil həyati müşahidələrinə istiqamət vermək və nəzarət etməkdir.





***Azərbaycan üçün ötən əsrin ən böyük nailiyyəti onun yenidən istiqlaliyyət qazanması və öz dövlət qurumunu bərqərar etməsidir. Belə bir şərait iqtisadi, siyasi, sosial həyatın bütün sahələrində əsaslı dəyişikliklərin həyata keçirilməsini tələb etdiyi kimi, mənəviyyat işinin əsas tərkib hissəsi olan bədii yaradıcılığa da güclü təsir göstərmiş, onun yeniləşdirilməsini və tərəqqi etdirilməsini qarşıya qoymuşdur.***

16618

Bədii yaradıcılığı obrazsız təsəvvür etmək mümkün deyildir. Bədii obrazda üç cəhət - fərdilik, ümumilik və tipiklik möhkəm bir vəhdət daxilində təzahür edir. Onlar sənət əsərinə həyat müşahidəsi, həyat materialı kimi gəlir. Sənətkar onları öz yaradıcılıq mövqeyi, estetik ideali baxımından axtarır, tapır, seçir və onlara bədii təcəssüm verir. Bədii obrazın ümumiləşdirilməsi, tipikləşdirilməsi, istedad əlaməti və sənətkarlıq işidir ki, bu da dəqiq həyat müşahidəsi, hadisə ardında mahiyyəti görə bilmək qabiliyyəti ilə əldə edilir. Bu barədə P.M.Yakobson məlum (9) əsərində yazır: "Gələcək əsərin qabaqcadan göz önündə canlandırılması ruh yüksəkliyi və yaradıcı qüvvələrin axını ilə müşayiət olunur. İdrak proseslərinin hamısının yaradıcılıq zamanı işə qoşulması vacibdir. Bu an əsər üzərində işlərkən mühüm mərhələ kəsb edir. Çünki vahid qavrama prosesində obrazların, fikirlərin, ideyaların bütövlük prinsipi və müvafiq emosional tona boyanmasında ideyanın gələcək dəqiqləşdirilməsinin əsası qoyulur." (9, s.28-29).

Həyatın bədii cəhətdən dərk edilməsi və mənimsənilməsi problemi heç şübhəsiz, sənətin psixologiyası problemləri ilə də bağlıdır. Belə ki, yaradıcı, oxucu, dinləyici, tamaşaçı psixologiyasını, yaradıcı təxəyyülü, sənətin mənimsənilməsi kimi mühüm bir məsələnin psixoloji əsaslarını öyrənmədən yaradıcılıq psixologiyası elminin müvəffəqiyyətlə irəliləyişindən söhbət gedə bilməz. Yaradıcılıq psixologiyası problemlərinin araşdırdığımız (yaradıcı təxəyyül) problem ilə əlaqəsi çox yaxındır və psixoloqlarımızın tədqiqatlarının həmin cəhətdən böyük əhəmiyyəti vardır. Məsələn, L.S.Vıqotskinin tədqiqatlarında (4, 5) incəsənət psixologiyası ilə yaradıcılıq psixologiyası (yaradıcı təxəyyül) məsələləri qarşılıqlı kontekstdə araşdırılır. O, yaradıcılığı - "hazır elementlərdən yeni modellərin qurulması" kimi səciyyələndirir və yaradıcılığın hərəkətverici qüvvəsi ağıl və hissiyyatdır - qənaətinə gəlir. "Təxəyyülün yaradıcı fəaliyyəti insanın keçmiş fəaliyyətinin müxtəlifliyi və zənginliyi ilə tam mütənasibdir. Çünki təcrübə elə bir materialdır ki, fantaziyanın qurumaları bu materialdan yaranır". (6, s.10)

L.S.Vıqotskinin "İncəsənətin psixologiyası" (4) əsəri bədii yaradıcılıq məsələlərinin araşdırılmasında böyük əhəmiyyətə malikdir. O, bu əsərdə sübut edir ki, psixoloji təhlildən kənar ədəbiyyat və incəsənətin mühüm qayələrindən birini təşkil edən idrakı və tərbiyəvi mahiyyəti anlamaq mümkün deyil. Bu əsərdə istər sənətin struktur təhlili, istər qavrayıcı şəxsiyyətin sənət əsərinə münasibəti və sənətin ona təsiri məsələsinə dair fikirləri elmi-nəzəri və metodoloji cəhətdən son dərəcə qiymətlidir. Vıqotskinin fikrincə incəsənət idrakın xüsusi formasıdır. Obrazlılıq incəsənətin spesifikası ilə bağlı olsa da hələ onun yeganə mahiyyətini müəyyən edən amil deyil. Çünki təfəkkür, ümumiyyətlə, obrazlıdır. "İncəsənətin məqsədi və vəzifəsi, məsələn, onda deyildir ki, sənətkarın fərdi yaşantılarını - onun qəm-kədər duyğularını və hisslərini oxucuya, tamaşaçıya, dinləyiciyə çatdırsın, ondadır ki, bu qəm-qüssəni elə bir şəkildə işləyib ifadə etsin ki, onu yeni cəhətlərdən açıb çözələmək mümkün olsun və nəticədə, daha kamil şəkildə bəşəri həyat həqiqətləri ifadə edilə bilsin". (4, s.8).

İnsanın yaradıcı fəallığı bütün aydınlığı ilə onun yaradıcı təxəyyülündə təzahür edir. Yaradıcı fəaliyyət prosesinə daxil olan yeni surətlərin müstəqil olaraq yaradılması məhz yaradıcı təxəyyül adlanır. Yaradıcı təxəyyülün fəaliyyətində yaradıcılıq məqsədi-ideyası mühüm rol oynayır. O, yeni surətlərin yaradılması prosesinə istiqamət verir. İlk qiymətli təxəyyül surətləri məhz yaradıcılıq məqsədinin mey-

M.F.Axundov adına Azərbaycan Milli

dana çıxdığı andan başlayaraq əmələ gəlir, ideyanın dəqiqləşməsi prosesində təşəkkül edir.

Yaradıcılıq prosesində insanın qabiliyyətləri təşəkkül edir, formalaşır, idrak fəaliyyətinin yeni üsul və tərzləri yaranır. Odur ki, yaradıcılıq prosesinin əsas əlamətlərindən biri, burada idrakın elə forma və metodlarının tətbiq edilməsidir ki, o sonra yaradıcılıq nəticəsinə gətirib çıxarır. Lakin bir cəhəti nəzərə almaq lazımdır ki, yaradıcılıq aktının müxtəlif mərhələlərində fikri fəaliyyətin xarakteri eyni deyildir. Belə ki, yaradıcılıq prosesinin müxtəlif mərhələlərində qavrayış, təfəkkür, təxəyyül və s. proseslərinin iştirak etmə nisbəti müxtəlifdir. Məsələn, ədəbi yaradıcılıqda əsərin ideyası formalaşdıqca təxəyyül də güclənir. Bu zaman nəzəri cəhətdən tamamlanmış ideyanın bədii cəhətdən düşünülməsi prosesi başlayır ki, bununla da yaradıcılıq psixoloji cəhətdən əsasən yaradıcı təxəyyül prosesi kimi xarakterizə olunan yeni mərhələyə daxil olur.

Tanınmış Polşa psixoloqu Mixail Arnaudov "Bədii yaradıcılığın psixologiyası" (2) adlanan fundamental tədqiqat əsərində yaradıcılıq aktının müxtəlif cəhətlərinə toxunaraq, incəsənətdə, bədii yaradıcılıqda təxəyyülün digər psixi proseslərlə vəhdətdə fəaliyyət göstərməsini maraqlı faktlarla əsaslandırır və yaradıcı təxəyyülün estetik mahiyyətini belə açıqlayır: "Yaradıcı təxəyyül instinktiv və ya şüurlu şəkildə həmişə vəhdətə, ardıcıllığa, harmoniyaya aparır, o, estetik nöqteyinəzərin kafiliyinə nail olaraq, cizgiləri və hadisələri dəyişdirir. Həqiqətin tələb olunanı tam hazır halda heç vaxt vermədiyindən mühüm əlaqə və mühüm elementləri açan bir sıra əqli əməliyyat lazımdır. Təhlilə və sintezə dair belə qabiliyyət olmadan hər hansı bir bədii yaradıcılıq ağlasığmazdır. Təxəyyülün həm gücü, həm də gücsüzlüyü bundadır. ... Təxəyyül həqiqətin ziddiyyətinə və ağlasığmazlığına heç vaxt nail ola bilməz. Lakin bu incəsənətin məqsədləri üçün vacib deyil. (2, s.269).

M.Arnaudovun bu fikri də maraq doğurmaya bilməz: "Yaradıcılıq - sağlamlıqdır, yaradıcılıq - bütün narazılıqlarla mübarizədir, yaradıcılıq - aydınlaşma və ruhi saflaşmadır, katarsisdir. ...Ruhun möhkəmliyi və normal məntiq yaradıcılıq nailiyyətlərinin sarsılmaz başlanğıcıdır". (2, s.49). Deməli, M.Arnaudova görə yaradıcılıq uğuru qazanmaq, yaradıcı təxəyyülü işə salmaq üçün yaradıcıdan sağlam ruh, bazalı məntiq tələb olunur.

Təxəyyülün xüsusi əlaməti subyektin yeni obrazlar yarada bilmək qabiliyyətidir. Bu isə kifayət deyildir, ona görə ki, təfəkkürlə təxəyyülü fərqləndirmək çətinləşir. Təfəkkürdən fərqli olaraq təxəyyüllə hissi idrak əlaqəli şəkildə fəaliyyət göstərir. L.S.Vıqotskinin (6) qeyd etdiyi kimi "təxəyyül yeni surətin yaradılması prosesidir." Təxəyyül üçün xarakterik olan cəhətlərdən biri onun tək təfəkkürlə deyil, eyni zamanda, hisslərlə bağlı olmasıdır. Ona diqqət etmək kifayətdir ki, təxəyyül keçmiş təcrübə əsasında yeni obrazların yaradılması prosesidir, hansı ki, hissi və rasional idrakın sintezində yenisi yaradılır. Bu da təxəyyülün insanın əmək fəaliyyəti şəraitində yaradılmasının reallığına əsas verir. Təxəyyülün formalaşmasının mənbəyi əməklə bağlıdır və insanın canlı fəaliyyətinin spesifik formasıdır.

İnsan təbiətdə tapa bilmədiyini, təxəyyülündə yaradır. O, bunu şüurun yardımı və digər insanlarla qarşılıqlı münasibət çərçivəsində həyata keçirir. Bu fəaliyyət öz mahiyyəti etibarilə yaratmaqdır və yaradıcılıqda o, təxəyyülün əsasını təşkil edir.

Nəyi isə etməmişdən əvvəl subyekt öz fəaliyyətini, onun axınını və nəticəsini təsəvvür edir. Ona görə də hər hansı sadə bir yaradıcı fəaliyyətdə təxəyyül elementləri vardır. Bu qarşılıqlı əlaqədə fəaliyyətin və təxəyyülün dialektikası çözələnir.

Təxəyyülə, həm proses (forma), həm də nəticə (yekun, məzmun) olaraq, obyektiv varlığın inikası kimi baxmaq olar. İctimai təcrübə təxəyyül fəaliyyətinin mənbəyində durur, duyğu və təfəkkür isə vasitəli şəkildə onu ifadə edir.

Uzun müddət yaradıcılığın öyrənilməsi ancaq psixologiyaya aid edilmişdir. Lakin son zamanlar məlum olmuşdur ki, ixtiraçıların, alimlərin yaradıcılıq potensialının inkişafını ancaq psixoloji üsullarla təmin etmək olmaz. Əlaqəli elmlərə istinad edərək yaradıcılıq probleminə həsr edilmiş kompleks tədqiqatlar aparmaq ehtiyacı yaranmışdır. Bu sahədə iş görən tədqiqatçıların əksəriyyəti həmin fikirlə şərikdir və bu problemin çətinliyini dərk edirlər. "Formal sxemlər səviyyəsində, psixologiya və yaradıcılığın ən ümumi əlaqəli cizgiləri imkan verir ki, söyləyək: bu, iki dairənin kəsişmə zonasıdır ki, onlardan biri yaradıcılıq haqqında bilikləri, ikincisi psixologiyanı təmsil edir. Y.A.Ponomaryov qeyd edir ki, yaradıcılıqla psixologiyanın qarşılıqlı əlaqəsi bu sahədə nəzəri-metodoloji problemlərin həllinə rəvac verir". (7, s. 18-19).

Müasir psixologiyada təxəyyül problemi ətrafında maraqlı mübahisələr və müzakirələr gedir. Təfəkkür psixologiyasının inkişafı şəxsiyyətin idrak fəaliyyətində təxəyyülün əsaslı faktorla adekvat qiymətləndirilməsini və onun digər idrak prosesləri ilə qarşılıqlı əlaqəsini israrlı şəkildə dəqiqləşdirməyi tələb edir.

Təxəyyüllə bağlı bir neçə vacib məsələni öndəmə gətirməyi lazım bilirik:

1. Hissi obrazlar yaranarkən, şəxsiyyət problem-situasiya qarşısında qalanda təxəyyülün köməyi ilə obrazlar arasında məntiqi və assosiativ əlaqə yaranır.

2. Təxəyyül təsvirə gətirilənlər üzərində əməliyyat aparır və həllini axtarır.

3. Təxəyyülün digər vacib xüsusiyyəti ondan ibarətdir ki, təxəyyüldə daxili şəxsi motivin qoyuluşu digər idrak proseslərinə nisbətən son dərəcə güclüdür.

4. Təxəyyül, təfəkkür və intuisiya (duyma) arasında dərin əlaqə mövcuddur. İntuisiya idrak sferasında nəticələrin təfəkkür və təxəyyül proseslərinə şüurlu axınıdır. Nəticə etibarilə, çox vaxt intuisiya (sezmə) təfəkkür və təxəyyülün yekun mərhələsi kimi çıxış edir, hansı ki, nəticələrin dərk olunması başqa idrak proseslərində baş verir.

5. Yaradıcılıq prosesi və təxəyyül nəzəriyyəsini inkişaf etdirmək üçün bilmək vacibdir ki, obyektiv dərketməkdə təxəyyül ancaq psixoloji alət rolunda çıxış edir.

Müasir dövrdə yaradıcılığı - planetin həyati əhəmiyyətli məsələsi hesab edirlər. İnsanlar sosial şəraitlərini yaxşılaşdırmaq üçün yaradıcı təxəyyülün imkanlarından səmərəli istifadə etməyə çalışırlar. Elmi idrak yaradıcılıq prosesini kompleks planda öz arxasınca aparır: tarixi zərurət - obyektiv ictimai tələbat - insanların meylləri - professional hazırlıq və dünyagörüşü - yaradıcı əməyin elmi təşkili belədir. cəmiyyət inkişaf edərək dəyişdiyi kimi, insanların da yaradıcı potensialı, yaradıcı təxəyyülü dəyişir, yeni məna kəsb edir. Tarixi reallıq və yaradıcılıq potensialı, tarixi zərurətə olan münasibət, ictimai tələbat, insanların maraq və meylləri, cəmiyyətin yaradıcılıq potensialı və şəxsiyyətin dəyişməsi, yeni yaradıcılıq metodlarının tətbiqi və s. bu kimi hallar mədəniyyət və incəsənət timsalında öz əksini tapan yaradıcı təxəyyülün inkişaf edərək mürəkkəbləşməsinə təkan verən səbəblərdəndir. Elə bu səbəblər də insanın yaradıcı fəaliyyətinin məzmununun və üslunun dəyişdirilməsi zərurətini öndəmə çəkir. Ona görə ki, yaradıcılıq əqli intellektə əsaslanan şüurlu idrak prosesidir. Bu prosesdə intuisiya yaradır, məntiq isə sübut edir. A.V.Yeqorov: "... intuisiyada mistik müəmmalı heç nə yoxdur. Bu həqiqətən idrakın vasitəsiz funksiyasıdır, ancaq tamamilə yox, nisbətən vasitəsiz" (3, s.67).

Yaradıcı şəxsiyyət ictimai həyatın çeşidli təsirləri altında formalaşır və burada sosial təsir həlledici rol oynayır. Son zamanlar ölkəmizdə, eləcə də xaricdə yaradıcılığın, yaradıcı təxəyyülün öyrənilməsinə xidmət edən elmi-tədqiqat işlərinin sayı və sanbalı kifayət qədər artmışdır. Yaradıcı təxəyyül problemi nəzəri və praktiki, xüsusi və kompleks, lokal və qlobal miqyasda öz əhəmiyyətinə görə müasir fundamental elmi-nəzəri və praktiki problemləri belə, hətta ötüb keçə bilmişdir.

Tədqiqatçı alim O.F.Frolovanın dediyi kimi: "Axı, yaradıcılıq - qurmaqdır, yenisini yaratmaqdır, bu yaradılma olmadan insanın şüurlu və düşüncəli olduğunu təsəvvür etmək olmaz". (3, s.89).

Müasir ictimai həyat hər bir kəsdən yaradıcılıq təşəbbüsü tələb edir. O cümlədən bədii ixtisaslarda təhsil alan tələbələrin mənəvi cəhətdən kamilləşməsində yaradıcı təşəbbüskarlığın böyük əhəmiyyəti var. Elmi biliklərə yiyələnməklə bərabər, tələbələr öz yaradıcı təxəyyüllərinin daim fəal olaraq yaradıcılıq prosesinə qoşulmasına səy göstərməlidirlər.

Bədii ixtisaslarda tədris olunan hər bir fənn tələbələrin yaradıcı təxəyyülünü inkişaf etdirmək üçün müəyyən imkanlara malikdir. Buna görə də yaradıcı təxəyyülün tərbiyəsində fənlərin qarşılıqlı əlaqəsi əsas götürülməlidir. Ümumiyyətlə, deyə bilərik ki, ali məktəbdə, xüsusən də bədii ixtisasların təlimi işində yüksək mənimsəməyə nail olmaq üçün, başqa psixi proseslər kimi, yaradıcı təxəyyülü də inkişaf etdirmək vacibdir.

Dünyəvi qloballaşmanın insan qarşısında qoyduğu tələblər mürəkkəbliyi ilə secilir. Belə bir şəraitdə zəkalı və səbatlı olmaq, geniş dünyagörüşünə yiyələnmək, zəngin mənəviyyata sahib olmaq əsas məqsədə çevrilir. Bədii ixtisaslarda təhsil alan tələbələrə məhz bu baxımdan yanaşmalı, onlarda düşündürücü yaradıcı keyfiyyətlərin formalaşmasına nail olmalıyıq.

**Vasif Muradzadə**


**Ədəbiyyat**

1. Ağayev R.Ə., Əlizadə A.İ. Bədii xalq yaradıcılığında tarixilik və varislik. Bakı: Mars-Print, 2003, 148 s.
2. Arnaudov Mixail. Psixoloqiə literaturnoqo tvorçestva. (Perevod s Bolqarskoqo D.D.Nikolaeva). Moskva: Proqress, 1970, 656 s.
3. Venqerenko N.A. Çelovek i tvorçestvo. (Sbornik trudov). M.: 1973, 1[illegible]0 s.
4. Vıqotskiy L.S. Psixoloqiə iskusstva. Moskva: Labirint, 1998, 416 s.
5 Vıqotskiy L.S. Psixoloqiə tvorçestva. Sobr. Soç. v 6-i tomax, t.3. M.: 1984, 357 s.
6. Vıqotskiy L.S. Voobrajenie i tvorçestvo v detskom vozraste. Moskva: Prosvehenie, 1991, 94 s.
7. Ponomarev Ə.A. Tvorçestvo i psixoloqiə // Psixoloqiçeskiy jurnal tom 1, №6, Moskva, 1980, s. 47-54
8. Problemı nauçnoqo tvorçestva /Sbornik analitiçeskix obzorov. Vıpusk 4. M.: 1985, 98 s.
9. Əkobson P.M. Psixoloqiə xudojestvennoqo tvorçestva. Moskva: Znanie, 1971, 48 s.